# Cənubi Qafqazda ermənilərin azərbaycanlılara qarşı törətdikləri ilk kütləvi qırğınlar

***XX əsrin əvvəllərində baş verən dünya iqtisadi böhranı zamanı iqtisadiyyatı zəif olan Rusiya imperiyasında yüzlərlə istehsal müəssisəsi bağlanır, yüz minlərlə insan işsiz qalır. Böhran illərində fəhlə tətilləri, nümayişlər mütəmadi hal alır. Ağır iş şəraitlərindən, iri sənayeçilərin istismarından təngə gəlmiş fəhlələrin əsas tələbləri sosial hüquqlarının təmin olunması ilə yanaşı, söz, mətbuat və sərbəst toplaşmaq azadlığı, dinin dövlətdən ayrılması və sairdir. Paralel olaraq imperiyanın ucqar regionlarında torpaqların kəndlilərə paylanması tələbi ilə kəndli hərəkatı vüsət almağa başlayır. Rusiya əhalisinin dörddə üçünü təşkil edən kəndlilər vergi verməkdən və digər mükəlləfiyyətləri daşımaqdan imtina edirdilər.***

1905-ci il yanvarın 9-u bazar günü Sankt-Peterburqda fəhlələrin dinc nümayişi çar qoşunları tərəfindən güllələnir. "Qanlı bazar" hadisəsi xalq kütlələrinin siyasi şüarlarla açıq çıxışlarına və Birinci rus inqilabının başlanmasına təkan verir. İmperiyanın mərkəzi ilə bərabər, regionları, o cümlədən Qafqazın cənubunu üsyan dalğası, kütləvi tətillər və nümayişlər bürüyür.

Cənubi Qafqaz regionu imperiyadaxili inqilabi proseslərdə fəal iştirak etməklə yanaşı, XIX əsrdə süni şəkildə yaradılmış "erməni amili" ilə bağlı millətlərarası münasibətlərin kəskinləşməsi ilə də diqqət mərkəzində olmuşdu. Türkmənçay və Ədirnə müqavilələrindən sonra Cənubi Qafqazda kütləvi şəkildə məskunlaşdırılan ermənilər XIX əsrin sonlarından etibarən siyasi və hərbi baxımdan təşkilatlanır və XX əsrin əvvəllərindən muxtariyyət tələbləri irəli sürürlər. Onlar paytaxt Tiflis şəhəri olmaqla əzəli Azərbaycan və Gürcüstan torpaqlarında xülyasında olduqları "Böyük Ermənistan"ı qurmaq istiqamətində təcavüzkar fəaliyyətə keçirlər. İlk mərhələdə ermənilər dövlət idarəetmə orqanlarında əsas və aparıcı mövqelərə yiyələnir, regionun bütün gəlirli sahələrini, Azərbaycan türklərinə (azərbaycanlılara) və gürcülərə məxsus mülkləri və iri torpaq paylarını ələ keçirməyə çalışırlar.

Tiflisdə gürcü dilində nəşr olunan "Tsnobis purtseli" qəzetində məlumat verilirdi ki, Borçalı qəzasının Baydararx kəndində varlı Tiflis sakini Mirzoyev tərəfindən böyük torpaq sahələri alınıb. O, öz torpağını kiçik paylara bölüb və İrəvanda əhalinin sıx məskunlaşdığı yerlərdən 60 ailəni orada yerləşdirmək istəyir. Əvəzində kəndlilər əkib-becərdiklərinin bir hissəsini Mirzoyevə verəcək, qalanlarını isə özlərinə götürəcəkdilər. Təbii ki, belə faktları minlərlə sadalamaq olar. İrandan və Anadoludan köçürülmüş ermənilərə münbit şərait yaradan imperiya Cənubi Qafqazda özünə sadiq qüvvə formalaşdırmaq niyyətində idi.

Tarixən yaşadıqları dövlətlərə xəyanət etmiş ermənilər öz xislətlərinin əsirinə çevrilərək çox keçmədən Rusiya üçün də başağrısına çevrilməyə başlayırlar. Erməni özbaşınalığının qarşısını almaq məcburiyyətində qalan hökumət 1903-cü ildə bəzi erməni məktəblərini və kilsələrini bağlayıb, mülklərini müsadirə etməli olur. Hətta Tiflisdə polislə ermənilər arasında toqquşmalar da baş verir.

Hökumətin sərt qərarları erməniləri daha təcavüzkar addımlar atmağa sövq edir. Xüsusi radikallığı ilə seçilən ermənidilli mətbuat bu yöndə ideyaların təbliğində müstəsna rol oynayır. 1903-cü il oktyabrın 14-də "Hnçak" ("Zəng") erməni Sosial-demokrat partiyası tərəfindən təşkil olunmuş terror aktı nəticəsində Qafqazda mülki hissə rəisi, general-adyutant Qriqori Qolitsın başından bir neçə xəncər yarası alır və 1904-cü ilin sonunda səhhətindəki problemlərə bağlı istefaya getməyə məcbur olur. Ermənilər dəfələrlə belə üsullardan istifadə etmişdilər. Yüksək vəzifəli şəxsləri rüşvət, erməni qadınları ilə ələ almağa çalışır, buna nail olmadıqda isə hədə-qorxu gəlir və hətta terror vasitəsilə fiziki məhv edirdilər. Çox vaxt yeni təyin olunmuş məmur özündən əvvəlki məmurun aqibətini yaşamamaq üçün istər-istəməz erməniləri dəstəkləməyə məcbur olurdu.





Ermənilərdən fərqli olaraq, Azərbaycan türklərinin və digər müsəlmanların ana dilində qəzet, jurnal, kitab nəşr etmələrinə, idarəetmə orqanlarında təmsil olunmalarına, maarif və xeyriyyə cəmiyyətləri yaratmalarına, təhsil almalarına və pedaqoji fəaliyyətlə məşğul olmalarına ciddi məhdudiyyətlər qoyulmuşdu. Şəhər dumalarında, eləcə də digər idarələrdə çalışan müsəlmanların sayı xristianların sayının yarısından çox olmamalı idi. Ali təhsilli müsəlmanlar orta təhsil müəssisələrində pedaqoji fəaliyyətdən kənarlaşdırılmışdılar. 25 il idi ki, müsəlmanlar xeyriyyə cəmiyyəti qura bilmirdilər. Ermənilər hökumətə nə qədər yaxın etnos hesab olunurdusa, azərbaycanlılar bir o qədər yad və uzaq idilər. Məhz bu amillər ermənilərə hər yerdə anti-türk, anti-Azərbaycan təbliğatı aparmağa, onları mədəniyyətdən uzaq vəhşilər, geridə qalmış köçərilər kimi qələmə verib gözdən salmağa əlverişli şərait yaradırdı. Yeri gəlmişkən, bununla bağlı belə bir faktı qeyd edək ki, Borçalıdan Mustafa adlı Qori seminariyasında təhsil alan bir azərbaycanlı onu "vəhşi asiyalı" ifadəsi ilə təhqir etmiş Ter-Arutyunov soyadlı bir ermənini öldürmüşdü.

1905-ci ilin aprel ayında Cənubi Qafqazın türk-müsəlman liberal ziyalıları sosial-siyasi və iqtisadi tələblərlə hökumətə petitsiya (ərizə) göndərirlər. Petitsiyanın müəllifi görkəmli hüquqşünas və ictimai-siyasi xadim Əlimərdan bəy Topçubaşov idi. Bundan sonra iyunun 10-da Qafqaz canişini qraf İlarion Vorontsov-Daşkov Bakı və Yelizavetpol quberniyalarının, Tiflis quberniyasının Borçalı qəzasının, eləcə də Batum və Dağıstan vilayətlərinin müsəlmanlarından ibarət nümayəndə heyətini qəbul edir.

İmperator II Nikolay xalq kütlələrini bir qədər sakitləşdirmək məqsədilə 1905-ci il oktyabrın 17-də qanunverici hakimiyyət və liberal azadlıqların verilməsi haqqında manifest imzalayır. Manifestdə xalqa vicdan, söz, mətbuat, sərbəst toplaşmaq azadlığı, qəzet-jurnal nəşrinə icazə verilməsi üçün bürokratik əngəllərin azaldılması, seçki islahatlarının aparılması vəd edilirdi. 17 Oktyabr Manifesti müsəlmanların da adi hüquqlarının təmin edilməsinə, onların siyasi partiya və təşkilat yaratmalarına imkan verirdi.

Bu arada ermənilər arasında muxtariyyət tələbləri durmadan artır. 1905-ci ilin noyabr ayında Tiflisdə erməncə nəşr olunan və şovinist-təxribatçı mövqeyi ilə fərqlənən "Mşak" ("Zəhmətkeş") qəzeti Konstitusiya-demokrat partiyasına keçdiyini və bütün Zaqafqaziya üçün ümumi muxtariyyət arzu etdiyini bəyan edirdi. Qeyd olunanlarla bağlı "Kavkaz" qəzetinin 10 yanvar 1906-cı il tarixli sayında ayrıca məqalə ilə çıxış edən A.Dementyev imzalı publisist-yazar məsələyə ümumi kontekstdə yanaşaraq ümumilikdə Zaqafqaziya xalqlarına muxtariyyət verilməsinin mümkün olub-olmamasını təhlil edir və belə bir nəticəyə gəlir ki, bu diyarda etnosların çox qarışıq yaşamaları səbəbindən muxtar üsul-idarə sisteminin tətbiqi qeyri-mümkündür. Yazısında Cənubi Qafqazda məskunlaşmış 3 ən böyük xalqın – Azərbaycan türklərinin, gürcülərin və ermənilərin yaşadıqları inzibati-ərazi dairələrində sayları və mövqeləri barədə ayrı-ayrılıqda məlumat verən Dementyev ilk olaraq öz şərhini ermənilərdən başlayır. O, statistik göstəricilərə istinad edərək bildirir ki, ermənilər Qafqazda yığcam deyil, çox səpələnmiş halda yaşayırlar. Ermənilərin Tiflis quberniyası istisna olmaqla Zaqafqaziyada yalnız İrəvan quberniyasının 3 qəzasında – Aleksandropol, Yeni-Bəyazid və Eçmiədzin qəzalarında əhali üstünlüyünə malik olduğunu vurğulayan yazar bu qəzalardan birincidə – 165 min əhalidən 135 mininin, ikincidə – 122 mindən 81 mininin, üçüncü qəzada isə 124 mindən 76 min nəfərin ermənilərdən ibarət olduğunu açıqlayır. Eyni zamanda, Tiflis və Kutais quberniyalarını, eləcə də Zaqatala dairəsini çıxmaqla, Zaqafqaziyanın digər bölgələrində ermənilərin sayının təqribən 850 min nəfər olduğunu vurğulayaraq, belə bir nəticəyə gəlir ki, onlara hansısa formada muxtariyyət verilməsi barədə söz belə ola bilməz və bunu anlamaq üçün Zaqafqaziyanın etnik xəritəsinə baxmaq kifayətdir.

Məqaləsinin davamında A.Dementyev yazır ki, gürcülər, əsasən, Tiflis və Kutais quberniyalarında yaşayırlar və onlar 1897-ci il siyahıyaalınmasına görə, bu iki quberniyanın birlikdə 1 milyon 777 min nəfərdən ibarət əhalisinin yarıdan bir azca çoxunu təşkil edir, Tiflis quberniyasını ayrıca götürdükdə isə bu quberniyanın 939 min əhalisindən yalnız 426 mini gürcülərdir, yəni bu quberniyada gürcülər azlıqdadırlar, qeyd olunanlardan başqa, "xatırlansa ki, Gürcüstanın ürəyində – Tiflisdə ağalıq edənlər gürcülər deyil, ermənilərdir, onda aydın olacaq ki, gürcülərə kağızda muxtariyyət verilməsi bunun gerçəkdə də belə olacağı mənasına gəlməyəcək".

A.Dementyev məqaləsinin gürcülərlə bağlı bölümündə müsəlman gürcüləri də unutmur və sayı təqribən 100 min nəfərdən ibarət olan bu toplumun xristian gürcülərlə ortaq heç nəyinin olmadığını qeyd edərək, onları ümumi hesaba almadığını yazır. Cənubi Qafqaz əhalisinin böyük əksərini təşkil edən müsəlmanlar (əsasən, Azərbaycan türkləri və digər kiçik müsəlman etnik qruplar) barədə də məlumat verən publisist onların sayının 2 milyon 740 min nəfər olduğunu qeyd edir və onlara muxtariyyət verilməsinin mümkünsüzlüyünü "aralarındakı təriqət fərqi bir yana qalsın, kəskin və səciyyəvi tayfa müxtəlifliyi" ilə izah edir.

Azərbaycanlı ziyalılar Rusiya imperiyasının müsəlman xalqlarının hüquqlarının təmin olunmasına çalışdığı bir dövrdə erməni mürtəce, şovinist təşkilatları "Qanlı bazar"dan sonra ölkə daxilində yaranmış gərginlikdən və qeyri-sabitlikdən öz mənfur məqsədləri üçün istifadə etdilər. Dövlət strukturlarında mühüm vəzifələr tutan, Tiflis və Bakı quberniyalarında bir çox sənaye və ticarət müəssisələrinə nəzarət edən erməni şovinistləri bu cür üstünlüklərdən və imkanlardan istifadə edərək azərbaycanlılara qarşı açıq-aşkar düşmən münasibəti bəsləməyə başladılar. Cənubi Qafqazda etnik və dini zəmində qarşıdurmaların yaranmasında erməni Qriqorian kilsəsi və 1890-cı ildə Tiflisdə yaradılmış "Daşnaksütyun" partiyasının fəalları fəal rol oynadılar. "Daşnaksütyun" partiyasının, başqa sözlə, "Erməni İnqilabi İttifaqı"nın 1904-cü ildə Vyanada keçirilən III qurultayında kəşfiyyat funksiyaları olan "Deli" terror təşkilatı yaradıldı, habelə daşnakların müharibə etmək üçün mütəşəkkil hərbi təşkilatının əsasını qoyan hərbi nizamnamə qəbul olundu.

Məhz bu qurultaydan sonra daşnakların təxribatları nəticəsində Cənubi Qafqazda sosial narazılıqlar milli münaqişəyə, erməni-azərbaycanlı qarşıdurmasına çevrildi. Bakı, Gəncə, Qarabağ, Naxçıvan, Qazax, İrəvan, Zəngəzur, Pəmbək, Tiflis, Borçalı daxil olmaqla Azərbaycan türklərinin yaşadığı bölgələrdə imperiya hakim dairələrinin gözü qarşısında minlərlə günahsız insan qətlə yetirildi, türk-müsəlman kəndi dağıdılıb yerlə-yeksan edildi. Yaşından və cinsindən asılı olmayaraq əliyalın dinc insanlar sadəcə azərbaycanlı olduqları üçün qətliama məruz qaldılar.

Milli zəmində ilk kütləvi toqquşmalar 1905-ci ilin fevral ayında Bakıda və İrəvanda baş verdi. Fevralın 6-da erməni kilsəsi qarşısında Məşədi Ağarza Babayev adlı şəhərdə nüfuz sahibi olan bir azərbaycanlının ermənilər tərəfindən vəhşicəsinə öldürülməsi nəticəsində Bakıda sonradan bütün Cənubi Qafqazı ağuşuna alan kütləvi iğtişaşlar başlandı və fevralın 10-a qədər davam etdi.

İrəvan şəhərində ermənilərlə Azərbaycan türkləri arasında fevralın 20-də başlanan və üç gün davam edən toqquşmalar üç ay sonra 23–26 may tarixlərində yenidən təkrarlanmışdır. Həmin dövrdə Tiflisdə gürcü dilində nəşr olunan "İveriya" qəzeti 28 fevral 1905-ci il tarixli sayında İrəvanda birinci qırğının fevralın 20-də iki azərbaycanlının bir-biri ilə dalaşıb tapança ilə atışması və yoldan ötən bir erməninin bunu görüb "erməniləri öldürürlər", – deyə haray salması nəticəsində başlandığını yazırdı. İkinci qırğın isə ermənilərin şəhərin Azərbaycan türkləri yaşayan hissəsinə hücum edib xeyli adamı qətlə yetirməsindən sonra başlanmışdı.

Naxçıvanda iğtişaşlar 12–15 mayda baş vermiş və buna bir azərbaycanlı sakinin ermənilər tərəfindən öldürülməsi səbəb olmuşdu. Bu bölgədə ən dəhşətli faciə azərbaycanlıların və ermənilərin qarışıq yaşadığı Cəhri kəndində baş vermişdi. Kazaklarla birləşən ermənilər bir neçə ailəni qətlə yetirdikdən sonra kəndi xarabalığa çevirmişdilər.

Şuşa toqquşmaları avqustun 16-da ermənilərin şəhərin azərbaycanlı məhəllələrinə hücum edib qırğınlar törətməsindən sonra başlayır. Buradakı çarpışmalarda Tiflisdən gəlmiş yüz erməni silahlısı da iştirak edirdi. 1905-ci ilin oktyabr-noyabr aylarında Cavanşir qəzasının azərbaycanlı kəndləri qırğına məruz qalır. Qarabağda vəziyyət məktəb təmiri ilə məşğul olan Cənubi Azərbaycan əsilli 17 türk–azərbaycanlı fəhlənin ermənilər tərəfindən işgəncə ilə qətlə yetirilməsi ilə gərginləşmişdi. Burada Hamazasp Srvantstyanın silahlı quldur dəstəsi Azərbaycan türklərinə qarşı xüsusi amansızlığı ilə seçilirdi.

1905-ci ilin avqust–sentyabr aylarında Bakıda yenidən toqquşmalar baş verir. Gürcüstan Mərkəzi Tarix Arxivində (GMTA) saxlanılan rəsmi sənədlərdən bu toqquşmalar zamanı da ermənilərin azərbaycanlılara və hətta kazaklara qarşı cinayətlərini üzə çıxaran faktlara rast gəlinir. Bakı Quberniya Jandarm İdarəsinin məlumatından bəlli olur ki, 1905-ci ilin 16 sentyabr tarixində Bakıda Bondarnaya küçəsində Hacıbaba Aşurov və Məşədi Meydanəli Muxtarov adlı iki azərbaycanlı ermənilərin hücumuna məruz qalır. M.Muxtarovun üstünə cuman Mnatsakanyan soyadlı birisi onun kürəyinə behbudla (qalın tiyəli, qında gəzdirilən iri bıçaqla) zərbə vurur, Avetisov soyadlı erməninin evinin pəncərəsindən isə başqa bir erməni – Bakı şəhəri II Barışdırıcı şöbəsinin məhkəmə pristavı Arumov revolverlə atəş açaraq H. Aşurovu yaralayır. Kazaklar hadisə yerinə gələrək Mnatsakanyanı və onun dostu Petrosyanı həbs edirlər. Bu kazaklardan Zolotaryev Avetisovun evinə yaxınlaşır ki, görsün kim atəş açıb. Ona da iki dəfə atəş açırlar, amma güllə dəyməyir. Arumov həbs olunur [GMTA, fond 83, siyahı 1, iş № 32, v. 70]. Bakı polismeysteri isə məlumat verirdi ki, 24 sentyabr 1905-ci ildə Bakıda Suraxanı küçəsində Aşurbəyovun evinin yanında postda duran Bender alayının sıravisi İosif Perqamentşik onun tüfəngini əlindən almağa cəhd göstərən İran təbəəli Stepan İsacanyantsı tüfəngdən atəş açaraq hər iki ayağından yaralamışdır [GMTA, fond 83, siyahı 1, iş № 32, v. 25].

Həmin ilin 18-20 noyabr tarixlərində Gəncədə çətinliklə qorunan kövrək sabitlik pozulur. "Tsnobis Purtseli" qəzeti öz səhifələrində Gəncədəki hadisələr barədə məlumat verərək yazırdı: "Deyilənlərə və bəzi qəzetlərin yazdığına görə, toqquşma üç müsəlmanın öldürülməsindən sonra başlayıb". Başqa bir mənbə də Gəncədə yüzə yaxın adamın ölümünə səbəb olan qırğınların 15 noyabrda üç və 18 noyabrda daha iki Azərbaycan türkünün öldürülməsindən sonra başlandığını yazırdı.

Gəncə hadisələri erməni-azərbaycanlı münaqişəsinin Tiflisə də sirayət etməsini tezləşdirdi. 1905-ci ilin 22–30 noyabr tarixlərində Tiflisdə erməni terrorçu-şovinist dəstələri tərəfindən türk-müsəlman əhaliyə qarşı kütləvi qətllər törədildi.

Arxiv materialları 1905–1906-cı illərdə milli zəmində qarşıdurmalar zamanı erməni silahlı dəstələrinin dinc türk-müsəlman əhaliyə qarşı xüsusi amansızlıq və qəddarlıq göstərdiklərini, qətliamlar törətdiklərini təsdiqləyir.

Qeyd olunduğu kimi, "Qanlı bazar" hadisəsindən sonra başlanan inqilabi proseslər ilə əlaqədar Rusiya imperiyasında yaranmış qeyri-sabit vəziyyətdən istifadə edən ermənilər öz məqsədlərinə çatmaq – Qafqazda erməni dövləti qurmaq istiqamətində ilk addımlarını reallaşdırmağa başladılar. Dövlət strukturlarında mühüm vəzifələr tutan, Qafqazın iri sənaye və ticarət mərkəzlərində üstün mövqeyə malik erməni millətçiləri türk-müsəlman əhaliyə qarşı açıq formada düşmən münasibət nümayiş etdirirdilər.

***Fəxri VALEHOĞLU,***
***Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin "Şərqi Avropa" şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru***